## Mövzu 16. Bələdçinin peşə ustalığı, bilikləri, bacarığı, vərdişləri.

### Plan.

Gid və bələdçi anlayışları. Bələdçi peşəsinin formalaşma mərhələləri. Bələdçi peşəsinə tələblər. Peşə və ixtisas. Peşə nüfuzu. Bələdçilikdə ustalıq. Bələdçinin peşə ustalığı, bilikləri, bacarığı, vərdişləri. Bələdçinin erudisiyası. Bələdçinin ustalıq səviyyəsinə təsir edən amillər. Bələdçinin intuisiya qabiliyyəti. Bələdçiliyin yaradıcı xarakteri. Bələdçinin peşəkarlıq və ustalıq səviyyəsinin yüksəldilməsi yolları.

Gid (bələdçi) fransız sözü (guide) olub "səyahət müşayiətçisi, rəhbəri" anlamına gəlir. Ekskursio isə latınca "səfər, gediş" deməkdir. Gid turistləri müşayiət edir və ərazinin, şəhərin, yaşayış yerinin qonaqpərvərlik obyektlərini təqdim edir. Eyni zamanda bələdçi bir peşədir.

Ekskursiya rəhbəri bələdçi peşəsinin bir seqmentidir və konkret turizm marşrutu və ya obyekti üzrə, məsələn, muzeydə, şəhərdə, şəhərin bir küçəsində və s. ekskursiya aparır. Adətən ekskursiya bir neçə saat davam edir və ekskursiya rəhbərinin başqa funksiyası yoxdursa, ekskursiyanın vaxtının başa çatması ilə bərabər, onun işi və məsuliyyəti də başa çatmış hesab edilir.

Gid (bələdçi) turist qruplarına rəhbərlik edir. O, dar istiqamətli ekskursiyaları idarə etmir və bu işi muzey işçilərinə, digər sahədə ixtisaslaşmış ekskursiya rəhbərinə həvalə edir. Bəzi hallarda gidin ekskursiya obyektlərini təqdim etməsi də mümkündür ki, bu zaman o gid-ekskursiya rəhbəri kimi status daşıyır.

Adətən gidlər müəyyən region və ya marşrutlar üzrə ixtisaslaşırlar və ona görə həmin region və marşrutlar üzrə mövcud qonaqpərvərlik obyektləri barədə ətraflı məlumata malik olurlar. Zərurət yarandıqda gid həmin obyektlər barədə geniş və əhatəli məlumat verə, təqdimat edə bilir, turistlərin müəyyən suallarını cavablandırır. Mütəxəssis turizm obyektləri barədə nə qədər geniş məlumata malik olsa, təqdimat da bir o qədər maraqlı olur və turistlərdə daha zəngin təəssüratlar formalaşır.

Savadlı və bacarıqlı gidin təqdimatı və şərhləri standart turizm-ekskursiya proqram və cığırlarından kənara çıxır. Bəzən turistlərin arzu və istəklərindən, turistlərdə yaranan maraq və suallardan asılı olaraq təcrübəli gid, əvəlcədən hazırlanmış marşrutdan və xidmət proqramından kənara çıxa, proqramı zənginləşdirə bilir. Bu gidin öz işinin ustası olmasının göstəricisi kimi qiymətləndirilir.

Gid peşəsi çox maraqlı və məsuliyyətli peşədir. O turizm-ekskursiya prosesində iştirak edən və bəzən məsuliyyətsiz və xoş məramlı olmayan insanların təhlükəsizliyi və idarə edilməsinə cavabdeh olur.

Gid həm də çətin vəziyyətlərdən çıxış yolu tapmağı, münaqişəli vəziyyətləri aradan qaldırmağı və həll etməyi, səfər müddətində turistlər üçün maksimal komfortlu şərait yaratmağı bacarmalıdır.

Gidlər adətən turizm bürolarında və ya turizm agentliklərində işləyirlər. Lakin təcrübəli gid fərdi qaydada, hüquqi və ya fiziki şəxs statusunda fəaliyyət göstərə bilər. Turist qruplarına cavabdeh olmayan ekskursiya rəhbərləri muzeylərdə, sərgi salonlarında, qalereyalarda və s. yerlərdə işləyə bilərlər.

Gid və ekskursiya bələdçisi çoxbilmiş və aktyorluq bacarığına malik olmalı, müxtəlif xarakterli insanlar və qruplar qarşısında çıxış etməyi sevməli və bacarmalıdır. Bundan başqa bu şəxslər yaxşı yaddaşlı, yeni biliklər almaqda maraqlı olmaq, məsuliyyətlilik, tarazlılıq, xoş niyyətlilik, ən müxtəlif xasiyyətli insanlarla ünsiyyət qurmaq bacarığı kimi keyfiyyətlərə malik olmalıdırlar. Gid və ekskursiya rəhbəri həm də fiziki sağlam olmalıdırlar, çünki, onlar uzun müddət ayaq üstə durur, həmişə ünsiyyətdə olurlar.

Gid turistləri apardığı yerlər, məkanlar, obyektlər barədə hərtərəfli biliklərə malik olmalıdır. O turistlərlə bir dildə danışmalı, başqa ölkəyə tur təşkil edirsə, həmin ölkənin yerli dilini bilməlidir. Ümumiyyətlə gid üçün vacib keyfiyyətlərdən biri də bir neçə xarici dil bilməsidir.

Hər bir peşə onu icra edən insandan müəyyən bilik və vərdişlər tələb edən əmək fəaliyyətini əks etdirir. Bu bilik və vərdişlər ümumi və ya xüsusi təhsil prosesində, insanların gündəlik təcrübi fəaliyyətlərində qazanılır və ya əldə edilir.

Yaxın vaxtlara kimi (XX əsrin 60-cı illərinədək) ekskursiya bələdçisi işi peşəkar fəaliyyət kimi yox, müəyyən insan qrupu üçün həvəskar fəaliyyət kimi qəbul edilirdi. Bələdçi vəzifələrini öz əsas işindən ayrılmamaq şərtilə müxtəlif sahələrdə fəaliyytə göstərən mütəxəssislər (pedaqoqlar, elmi işçilər, muzey və ya institut əməkdaşlarıi və s.) yerinə yetirirdilər. Məhdud sayda turizm müəssisələrində və ekskursiya bürolarında bələdçi ştatında işləyən işçilər var idi. Artıq həmin dövrdən bələdçi işi tədricən peşə kimi formalaşmağa, əlamətləri yaranması başladı.

Bələdçiliyin bir peşə kimi formalaşmasında 70-ci illərdə bir çox ölkələrdə turizm idarəetmə orqanları tərəfindən ekskursiya fəaliyyətinin genişləndirilməsi və inkişafı sahəsində həyata keçirilən tədbirlərin mühüm rolu oldu. Ekskursiyaların funksiyasının dəyişməsi və insanların istirahət formasından kollektivlərdə, müxtəlif sosial qruplarda, yaşayış məntəqələrində, turizm proseslərində kütləvi mədəni-tərbiyəvi işə çevrilməsi və bu sahənin insanlara geniş xidmətlər təqdim edən sahə kimi sürətlə inkişaf etməsi, bələdçi işinin rolunun artmasına və yeni peşə növü kimi formalaşmasına səbəb oldu. Keçən əsrin 40-cı illərində ekskursiyalarda rəhbər, muzeylərdə insanlara eksponatları göstərən, müəyyən izahat verən əməkdaş kimi təqdim edilən şəxslər, 70-ci illərdən insanlara bilik və informasiya verilməsi etibar edilən şəxs, pedaqoq, tərbiyəçi-bələdçi kimi adlandırılmağa başladılar. Artıq səyahətlər və ekskursiya bürolarının, muzeylərin, sərgi və yarmarkaların, rəsm qalareyalarının, müxtəlif turizm müəssisələrinin və s.-in müəyyən əməkdaşları bələdçi kimi qəbul edilirdi.

Bələdçi adı turizm sahəsində fəaliyyət göstərən, müvafiq təhsil alan, xüsusi təşkil edilmiş kurslarda hazırlıq və ya yenidən hazırlıq keçmiş, fərdi qaydada hazırlaşmış və ekskursiya bələdçisi kurslarının verdiyi müvafiq tələblərə cavab verən şəxslərə şamil edilirdi. Bələdçiyə irəli sürülən tələblər "Turizm-ekskursiya müəssisələrinin bələdçisinin vəzifə təlimatları" sənədinə asasən tənzimlənirdi. Artıq XX əsrin 90-cı illərindən başlayaraq, bələdçi turizm-ekskursiya işində əsas oyunçulardan biri hesab edilirdi.

Bələdçi peşəsinin formalaşması mürəkkəb və çoxşaxəli prosesdir və onun bir peşə kimi formalaşmasının dörd mərhələsi müəyyən edilir.

Cədvəl 2.1. Bələdçi peşəsinin formalaşması mərhələləri.

| Mərhələlər | Prosesin adı | Fəaliyyət yeri |
|---|---|---|
| I | İnsanlarla mədəni-kütləvi işə meyilin yaranmasl | Ümumitəhsil məktəbi, klub fəaliyyəti |
| II | Peşə üzrə sistemli biliklərin alınması | Universitetlər, kurslar, fərdi hazırlıq |
| III | Peşə vərdişlərinin və ustalığının mənimsənilməsi | Bələdçi hazırlığı kursları, ali mktəblərin turizm ixtisasları |
| IV | Peşə vərdiş və bacarıqlarının, ixtisas biliklərinin təkmilləşdirilməsi | İxtisasartırma kursları, metodiki bələdçi bilikləri verən bölmələr |

Bələdçi peşəsini seçən şəxsə bir sıra tələblər var. Bu tələblərə aşağıdakılar aiddir:

- Kütləvi, mədəni, tərbiyəvi işdə iştiraka meyillilik.

- Tərbiyə prosesində ekskursiyanın və bələdçinin rolunu, əhəmiyyətini dərk etmək.

- Öz vəzifə borcunu və məsuliyyətini dərk etmək.

- Yaxşı diksiyaya, müəyyən biliklərə, bir neçə ekskursiya mövzusu haqqında ətraflı məlumatlara malik olmaq.

- Müəyyən çatışmazlıqlara, mədəniyyətsizliyə və insanların davranışlarında və düşüncələrində olan köhnəliyə qarşı barışmazlıq.

-Öz bilik və bacarıqlarını, vərdişlərini təkmilləşdirmək.

-İnnovativ hisslərə və düşüncələrə sahib olmaq.

-İşdə təşəbbüskar və yaradıcı olmaq.

-Ekskursantların sorğu və maraqlarını dərindən öyrənmək.

-Müxtəlif turist qruplarına xidmət göstərilməsinə fərqli yanaşmaq.

-Turistlərlə davranış zamanı tərbiyəli, yüksək mədəniyyətli, nəzakətli və taktikalı olmaq.

-Ekskursiya aparılması metodu və üsullarını bilmək.

-Öz peşəsini sevmək.

Hər bir bələdçi öz peşəsi ilə yanaşı pedaqogika və psixologiyanın əsasları barədə də nəzəri biliklərə malik olmalıdır. Bələdçi həm də öz işini, turistlərlə davranışlarını təhlil etməyi, apardığı ekskursiyanı qiymətləndirməyi və bu zaman prinsipial olmağı və özünə tənqidi yanaşmağı bacarmalıdır.

Bələdçi peşəsi müəyyən praktiki bacarıqların olmasını da nəzərdə tutur. Bu bacarıqlar bələdçiyə öz bilik və bacarıqlarını formalaşdırmağa və geniş auditoriyaya informasiya ötürmə metodunu seçməyə imkan verir. Bələdçi peşəsini seçmiş hər bir işçi aşağıdakıları bacarmalıdır:

-Ekskursiya üçün zəruri, faktiki material seçmək və onu öyrənmək.

-Müəyyən mövzu üzrə fərdi ekskursiya mətni hazırlamaq.

-Metodiki yanaşmanı tərtib etmək və təcrübədə həmin metodiki üsulları tətbiq etmək.

-Ekskursiya materialında əyani vəsaitlərdən istifadə etmək.

-Digər bələdçilərlə məsləhətləşmək, onların bu sahədə bilik və təcrübələrini öyrənmək, onlarla qarşılıqlı yardımlaşmaq.

-Ərazinin turizm ekskursiya imkanlarını təbliğ etmək.

Bələdçinin praktiki bilik və bacarıqları onun metodiki və ya pedaqoji fəaliyyətlə məşğul olmasına, metodiki şöbələrə rəhbərlik etmək, digər bələdçilərin ixtisaslarının artırılması kurslarında dərs aparmaq, turizm müəssisələrinin rəhbərlərinin və işçilərinin praktiki fəaliyyətlərində məsləhət vermələrinə imkan və əsas verir. Praktiki bilik və bacarıqların, vərdişlərin olması bələdçinin ustalığının dayanıqlı əsaslarını yaradır. Bələdçinin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri ixtisaslaşma hesab edilir. Əvvəlcə çox vaxt qarışdırılan peşə və ixtisas terminlərinin məzmununu, mahiyyətini və qarşılıqlı münasibətlərini aydınlaşdırmaq vacib hesab edilir.

**Peşə** müəyyən bilik və bacarıqların, vərdişlərin məcmusunu tələb edən əmək fəaliyyəti formasıdır.

**İxtisas** isə bir peşə çərçivəsində fəaliyyət növüdür. Məsələn, həkimlik peşə, terapevt, cərrah, stomatoloq isə ixtisasdır. Peşə əsas fəaliyyət növü, ixtisas isə müəyyən peşə çərçivəsində bilik və bacarığa malik olmanın səviyyəsini göstərən anlayışdır. Başqa sözlə mütəxəssis, yəni ixisasçı hər hansı ixtisası peşəkarcasına bilən işçidir.

Yeni bələdçilərin hazırlanmasında məqsəd mütəxəssislərin peşəkarlıq səviyyələrini daha da yüksəltmək, yəni, hər bir mütəxəssisə öz məcmu bilik və

bacarıqlarını, vərdişlərini lazımi səviyyədə inkişaf etdirmələrində kömək etməkdən ibarətdir. Bu məsələdə iş elə təşkil olunmalıdır ki, turizm-ekskursiya müəssisəsinə gələn işçi öz peşəkarlıq səviyyəsini saxlamağa yox, bu səviyyəni daha da inkişaf etdirməyə davam etsin. Bu şərtin yerinə yetirilməsi həmin işçiyə ekskursiya fəaliyyətini müvəffəqiyyətlə davam və inkişaf etdirməyə imkan yaradır.

Ekskursiya işinə meyilli olan insanlar daha yaxşı bildiyi mövzulara həsr edilmiş ekskursiyaların təşkili və aparılmasına üstünlük verməlidirlər. Məsələn, tarix müəllimi bələdçi fəaliyyəti ilə məşğul olmağa qərar verirsə, onun müvəffəqiyyət qazanması üçün tarixi mövzu və hadisələrə həsr edilmiş ekskursiyaları idarə etməsi məqsədəuyğun hesab edilir. Tarixçi müəllimə təbiətşünaslıq mövzusunda ekskursiya proqramı tərtib etmək barədə tapşırıq verilməsi məsləhət deyil. Bu mövzuda ekskursiya proqramı təbiət barədə geniş bilikləri olan bioloq tərəfindən daha məzmulu və əhatəli tərtib edilə bilər.

Turizm-ekskursiya müəssisələrində və əsasən dövlət mülkiyyətində olan muzeylərdə ixtisaslaşma prinsipi geniş tətbiq edilir. Məhz ixtisaslaşma əsasında bələdçilərin tarix, ədəbiyyat, təbiətşünaslıq, istehsal və s. mövzuları üzrə bölmələr yaradılır. Mütəxəssis-bələdçilərin işi turist və ekskursantlar tərəfindən də yüksək qiymətləndirilir.

Ali və orta təhsil müəssisələrində ixtisas və peşə təhsili alan, kurs keçən və ya fərdi qaydada hazırlaşaraq turizm-ekskursiya müəssisələrinə işə gələn bütün işçiləri bir neçə qrupa bölmək olar.

Bir qrup təhsil aldığı, kurs keçdiyi, fərdi qaydada hazırlaşdığı zaman öyrəndiyi bir-iki mövzu üzrə turlar təşkil edir və təşkil edilən digər ekskursiya mövzularının müəyyən edilməsi məsələsinə qarışmır və bu sahədə məsuliyyət daşımır.

İkinci qrup işçilər üçün fəaliyyət istiqamətləri ilk iş illərində təhsil aldıqları və ya hazırlaşdıqları müddətdə aldıqları ixtisasdan və daha yaxşı mənimsədikləri mövzudan qırağa çıxmır. Bildikləri mövzu üzrə turlar və ekskursiyalar təşkil etməklə öz güclərini, bilik, bacarıq və vərdişlərini həmin mövzuların təkmilləşdirilməsinə, peşəkarlıq ustalıqlarının yüksəldilməsinə həsr edirlər.

Üçüncü qrup bələdçilər isə istənilən mövzuda tur və ekskursiyalar təşkil edirlər və beş-altı il ərzində onların hesablarında bir-birindən fərqli, rəngarəng mövzulara həsr edilmiş onlarla turizm-ekskursiya mövzuları olur. Belə bələdçilər ekskursiyaları adətən orta səviyyədə aparırlar.

İstənilən peşə müəyyən nüfuza malikdir. Bələdçi peşəsi də müəyyən nüfuza sahib olan peşələrdən biridir.

**Peşə nüfuzu**-ona olan hörmətlə müəyyən edilir. Bələdçi peşəsi də nüfuzlu peşələrdən biridir və bu nüfuz onun cəlbediciliyi, orijinallığı, qeyri-adiliyi, intellektual xarakteri və xüsusilə son illər turizm fəaliyyətinin sürətlə inkişaf etməsi və kütləvi xarakter alması ilə bağlıdır. Bələdçi peşəsinin sosial nüfuzu bələdçinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinə, mədəni-tərbiyəvi işin təşkili və aparılmasında onun rolunun başa düşülməsinə əsaslanır. Bələdçi olmaq istəyən və bu peşəni seçən gənclər üçün əsas keyfiyyət kimi onların müxtəlif xarakterli qruplar və fərdlər ilə ünsiyyət qurmaq, məqsədli auditoriyanın maraq obyekti ola bilmək, özünün gündəlik fəaliyyəti ilə turist və ekskursantlarda müsbət emosiyalar yaradaraq qiymətləndirilməsini təmin edə bilmək kimi qabiliyyətlərin olması vacib hesab edilir.

Bələdçinin peşəkar ustalığı və bələdçi peşəsinin nüfuzu bir-biri ilə sıx bağlı anlayışlardır. Eyni zamanda nəzərə almaq lazımdır ki, bələdçi peşəsinin mənəvi nüfuzu avtomatik olaraq hər bir bələdçinin şəxsi nüfuzu hesab edilə bilməz. Bələdçinin şəxsi nüfuzu onun kollektivdə, iş yerində, əsasən də turizm-ekskursiya tədbirlərinin həyata keçirildiyi auditoriyada təqdimat və nümayiş edərkən fəaliyyətinin hər günündə yoxlanılır və təsdiq edilir. Bələdçinin məqsədli auditoriyada davranışları, etik norma və qaydalara əməl etməsi, ünsiyyət qurmaq və emosiya yaratmaq kimi keyfiyyətləri peşəkarlıq nüfuzunun dəyişməz meyarları hesab edilir. Sadalananlar bələdçi peşəsinin və bələdçinin peşəkarlıq nüfuzunun qiymətləndirilməsində nəzərə alınan əsas meyarlardır.

XX əsrin 70-ci illərindən turizm-ekskursiya müəssisələrinin və muzeylərin ştat cədvəllərində ekskursiyaların təşkili və reallaşdırılması üçün bələdçi vəzifəsinə işçilər qəbul edilirdi. Bu bələdçilər öz sələflərindən fərqli olaraq ekskursiyaları əsas

iş vaxtından sonra, asudə vaxtda təşkil etmirdilər. Bu bilavasitə onların iş yerlərində vəzifələri hesab edilirdi. Həmin bələdçilər üçün ekskursiyaların təşkili hobbi və ya əlavə qazanc mənbəyi hesab edilmirdi. Ekskursiya həmin bələdçilərin əmək fəaliyyətlərinin əsas predmeti olmuşdur.

Eyni zamanda bəzi turizm-ekskursiya müəssisələrində ekskursiyalar digər müəsisə və təşkilatlardan dəvət edilmiş mütəxəssislər tərəfindən aparılırdı. Həmin mütəxəssislər üçün bələdçilik ikinci peşə hesab edilirdi və ayrıca ekskursiyanın aparılması üçün dəvət edilirdilər. Həmin illərdə turizm-ekskursiya müəssisələrində, bürolarında və s. turizm təşkilatlarında bələdçilərin hazırlanması kursları təşkil edilməyə başladı. Belə kurslar sovetlər dönəmində Mərkəzi turizm kurslarında, Turizm-ekskursiya müəssisələrinin işçilərinin ixtisaslarının artırılması İnstitutunda, sonralar İnturist, Sputnik təşkilatları nəzdində və sadalanan subyektlərin Azərbaycanda olan strukturlarında da təşkil edilirdi.

Ekskursiya dedikdə, yaşadığımız dünyada mövcud olan predmetlərin və təzahürlər dünyasının dərk edilməsinə yönələn proses başa düşülür. Bu prosesin rəhbəri ixtisaslı mütəxəssis-peşəkar ustalıq keyfiyyətlərinə malik olan bələdçi hesab edilir. Bələdçilər müxtəlif bilik sahələri üzrə ixtisaslaşmalarına görə bir-birlərindən fərqlənsələr də, ekskursiyanın aparılması metod və üsullarından istifadə etmələrinə, pedaqoji ustalıqlarına, dərketmə vaxtı qrupların idarə edilməsi bacarıqlarına görə eyni subyektlərdir.

Ekskursiya aparma ustalığı özündə spesifik peşəkarlıq əsasları ilə yanaşı digər ustalıq növlərini (pedaqoji, natiqlik və s.) də birləşdirir. Bu ustalıq özünü ekskursiya materialının yüksək səviyyədə təqdim edilməsini təmin edən metodiki üsul, fənd və tövsiyələrin hansı səviyyədə yerinə yetirilməsində biruzə verir. Məhz bu ustalıq müsbət emosiyaların, turizm-ekskursiya təəssüratlarının yaradılmasında mühüm rol oynayır. Bələdçinin ustalığı ekskursiya nəzəriyyəsinin və metodikasının əsas müddəalarının öyrənilməsi və onların daim təcrübi istifadə edilməsi yolu ilə formalaşır.

Bələdçinin peşəkarlıq ustalığı xüsusi sənət növü olub, nümayiş və danışığın vəhdətinin yaradılması və fəal surətdə, birgə istifadəsi prosesi üzərində qurulur.

Prosesdə bələdçi, turist-ekskursant və nümayiş obyektləri komponent kimi iştirak edir və qavranılır, ekskursiyanın aparılması metodları tətbiq edilir, bələdçiliyə xas olan spesifik bacarıq və vərdişlər təzahür edir. Bu ustalıq daha təcrübəli peşəkarlardan öyrənməklə, praktiki fəaliyyət zamanı özünü təkmilləşdirməklə formalaşdırıla bilər.

Bələdçinin peşəkarlıq ustalığının toplananlarını iki qrupa bölmək olar:

1.biliklər

2.bacarıqlar.

Biliklər özü ümumi (savad) və ixtisas biliklərindən (ixtisas üzrə savad), həmçinin ekskursiya nəzəriyyəsi, ekskursiyanın aparılması metodikası, psixologiya və pedaqoqika, natiqlik sənətinin əsasları, məntiq və etika biliklərinin məcmusundan ibarətdir.

Bacarıqlar dedikdə bilik formalaşdırmaq, ekskursiyanın aparılmasına kimi öz fikirlərini formalaşdırmaq, danışıq və nitq mədəniyyətinin köməyi ilə insanların dünyagörüşünü genişləndirilmək, metodiki üsullardan istifadə etmək, ekskursiya məlumatlarını auditoriyaya çatdırmaq və auditoriyanı idarə emək, öz inamlılığını göstərə bilmək və kollektivdə özünü apara bilmək kimi keyfiyyətlər nəzərdə tutulur.

Bələdçinin savadı (erudisiyalı) olması, onun müxtəlif sahələr üzrə biliklərə sahib olması, istənilən suala cavab verə bilməsini tələb etmir. Savadlı bələdçi o şəxslər hesab edilir ki, bir neçə ekskursiya proqramlarını dərindən bilir, həmin proqramların müxtəlif turist qrupları üçün müxtəlif variantlarını hazırlaya, mövzu üzrə mühazirə oxuya, alt mövzulara aid suallar üzrə referat yaza bilir. Bu keyfiyyətlərə sahib olan bələdçilər savadlı bələdçilər hesab edilirlər. Belə bələdçilər ixtisas üzrə mövcud ədəbiyyatlar barədə məlumatlı olurlar və peşəsi üzrə son məlumatlarla maraqlanır və onları mənimsəyirlər.

Bələdçinin ustalığı onun ekskursiya nəzəriyyəsini bilməsindən və bu biliklərdən daim istifadə etməsindən də çox asılıdır. Bələdçinin əsas funksiyası turist qrupuna yalnız məlumat və bilik vermək yox, həm də həmin bilik və məlumatları turistlərə səmərəli mənimsətməkdən ibarətdir. Ona görə bələdçinin ustalığının əsas komponentlərindən biri danışıq və nümayişin metodiki üsullarını bilmək və istifadə

etməklə yanaşı, bu metodlardan istifadə texnologiyalarını mənimsəməsi, yəni, turist-ekskursantların məlumatları mənimsəməsinin gedişi prosesini idarə etməyi bacarmasıdır.

Bələdçinin ustalıq səviyyəsi bir çox amillərdən asılıdır. Həmin amilləri iki qrupa bölmək olar:

1.Bələdçidən asılı olmayan amillər. Bu amillərə metodiki sənədləşmənin səviyyəsi, nümayış obyektlərinin seçilməsi, marşrutun tərtibi, bələdçi portfelinin məzmunu kimi amillər aiddir.

2.Bələdçidən asılı olan amillər. Bu amillərdən bələdçinin savadlılıq səviyyəsi, mövzunu bilməsi, metod və üsulları bilməsi, nitq mədəniyyəti, ünsiyyət qurmaq bacarığı, praktiki bilikləri və peşəkarlıq vərdişlərini qeyd edə bilərik.

Bələdçinin ustalığının mühüm əlamətlərindən biri turist-ekskursant qrupunu idarə edə bilmək və ekskursiya müddətində qrup üzvləri ilə zəruri əlaqə və ünsiyyət yarada bilmək bacarığının olmasıdır. Bələdçinin qarşısında duran mühüm vəzifələrdən biri də görüş zamanı turist-ekskursantlarda olan qorxu və şübhələrin aradan qaldırılmasına nail olmaqdır. Bu zaman təcrübəli bələdçinin köməyinə onun intuisiyası gələ bilər.

Bələdçi ekskursiya mövzusuna müxtəlif maraq və sorğuları olan, müxtəlif əhval-ruhiyyəli, diqqətli turist qrupları ilə işləyir. Bu bələdçidən konkret vəziyyətdən asılı olaraq nitqini dəyişməyi, öz fikrinin ifadə etmək üçün daha başadüşülən ifadələr işlətməyi tələb edir. Bu zaman ona intuisiya istiqamət verə bilər.

**İntuisiya**-real həqiqəti təsdiqləyici faktlardan istifadə etməmək şərtilə birbaşa qavrayaraq dərk etmək və düşüncələrimizi davranışlarımızı bu əsasda formalaşdırmaq bacarığıdır. İntuisiya bələdçidə bir neçə il işlədikdən sonra yaranır və özünü aşağıdakı əlamətlərlə biruzə verir:

-turist-ekskursantların tərkibinin və suallarının müəyyən edilməsi bacarığının yaranması,

-danışıqda gözlənilməz ifadələrin, hərəkətlərin, faktların istifadə edilməsi,

-ekskursantların hər hansı bir şeyə maraqlarının yaranması zamanı nəticəyə gəlinməsi,

-turist-ekskursantların replikalarına düzgün reaksiya verilməsi,

-münaqişəli vəziyyətlərin yaranması zamanı düzgün çıxış yolunun tapılması;

-ekskursantlarda assosiasiyaların yaranmasına tövsiyələr verilməsi və düzgün qiymətləndirilməsi.

Təcrübəli bələdçi öz intuisiyasına istinad edərək turistlərin sorğularını dinləmədən onların maraqlarını müəyyən edə və buna əsasən öz giriş nitqini uzada və ya qısalda, bir alt mövzudan digər alt mövzuya məntiqi keçidin məzmununu dəyişə bilər. İntuisiya həm də bələdçiyə qrupla iş zamanı hansı metodiki üsuldan istifadə etməyin daha məqsədəuyğun olmasını müəyyən etməyə kömək edə bilər. Turist-ekskursantların əhval-ruhiyyəsinin, onların müşahidə edilən obyektlərə marağının və münasibətinin müəyyən ediməsində intuisiyanın rolu elə də böyük olmur. İntuisiya bələdçiyə ekskursiyanın orta standarta salınması cəhdindən qaçmağa, hər bir ekskursiya materialının və mövzusunun şərh edilməsinə fərqli yanaşmağa imkan verir.

Bələdçi işi yaradıcı xarakterlidir. Fəaliyyət müddətində yaradıcılıq bələdçinin təsəvvürlərində və gündəlik fəaliyyətində metodiki üsulların seçilməsi və istifadə edilməsində, atalar sözlərinin, deyimlərin, ədəbi parçaların, nitqi canlandırmanın müxtəlif formalarının, alt mövzulararası məntiqi keçidlərin seçilməsində, ekskursiya aparılması texnikasının təkmilləşdirilməsində özünü biruzə verir. Eyni zamanda ekskursiyaların aparılması zamanı bələdçinin yaradıcılığı nəzarət mətnindən və metodiki tərtibdən kənara çıxmamalıdır.

Metodiki işçilər və metodiki şöbə rəhbərləri bələdçinin məqsədyönlü təşəbbüslərini qeyd etməli və dəstəkləməli, bələdçinin ekskursiyaların aparılması metod və üsullarının təkmilləşdirilməsi üçün fəal davranışlara cəhdlərini mükafatlandırmalıdırlar. Tapşırılan işə yaradıcı yanaşan bələdçi tərəfindən hazırlanmış və həyata keçirilmiş bəzi ekskursiyalar peşəkar ustalığın nümunəsi hesab edilə bilər.

İstənilən turizm-ekskursiya müəssisəsinin fəaliyyətində əsas məqsədlərdən biri, bələdçilərin peşəkar ustalıq səviyyələrinin daim təkmilləşdirilməsindən ibarətdir. Bu məqsədə nail olmaqdan ötrü müxtəlif yollar təklif edilir. Həmin yollardan aşağıdakıları nəzərdən keçirək.

1.bütün öyrədən həlqələrin (metodistin, metodiki şöbənin rəhbərinin, bələdçilərin metodiki şöbəsinin, metodiki kabinetin, metodiki şuranın) metodiki işlərinin təşkilinin yaxşılaşdırılması;

2.keyfiyyətli metodiki sənədləşməninn hazırlanması, ekskursiyaların nəzarət mətnlərinə düzəliş və tamamlamaların vaxtında əlavə edilməsi, ekskursiya marşrutunun düzəldilməsi;

3.ekskursiya mövzularının xüsusiyyətlərinə uyğun danışıq və nümayişin metodiki üsullarının texnologiyasının tərtibi;

4.ekskursiyanın aparılması texnikasının və təşkilati sualların hazırlanması;

5.pedaqoqikanın, psixologiyanın və məntiqin əsaslarını nəzərə almaqla ekskursiyanın bütün davametmə müddətində bələdçi və turist-ekskursantlar arasında əlaqənin yaradılması və saxlanması.

Bələdçinin pəşəkar ustalığının yüksəldilməsi üzrə həyata keçirilən bütün işlər planlı və təşkilati xarakterlidir. Bu məsələdə bələdçilərə, xüsusilə fəaliyyətə yeni başlayan bələdçilərə xüsusi metodiki ədəbiyyatdan istifadə edilməsi faydalı hesab edilir.

Deməli bələdçinin ustalığının əsasını bilik, bacarıq, vərdiş, şəxsi keyfiyyətlər, peşə nüfuzu təşkil edir. Öz işini sevmədən, ona hörmət etmədən seçilmiş peşənin ustası olmaq mümkün olmur.

Bu məsələdə bələdçinin bələdçiliyin nəzəri məsələlərini dərindən öyrənməsinin xüsusi rolu qeyd edilməlidir. Məhz nəzəri biliklərin dərindən mənimsənilməsi ekskursiyanın mahiyyətini dərk etməyə, intuisiyanı inkişaf etdirməyə, dili və nitqi zənginləşdirməyə və onlardan səmərəli istifadə etməyə imkan verir.